# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## ƏMR

№ 21-065

**Bakı şəhəri** "17" oktyabr 2018 il

**Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi haqqında**

"Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanının 4-cü hissəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanının 18-1-ci hissəsinə və 45.3-cü, 46.3-cü, 48-1.2-ci, 49.2-ci, 47.1-ci və 63-1.1-ci bəndlərinə uyğun olaraq rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı" təsdiq edilsin **(əlavə olunur)**.

**2.** Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan bu əmrin 1-ci hissəsi ilə siyahısı təsdiq edilmiş vəzifəli şəxslərə tapşırılsın ki, inzibati xəta haqqında protokolun inzibati xətanın törədilməsi faktı aşkar edildikdən dərhal sonra, işin hallarının, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin şəxsiyyətinin və ya hüquqi şəxs barəsində məlumatların əlavə aydınlaşdırılması tələb olunduğu hallarda inzibati xətanın aşkar edildiyi vaxtdan iki gün müddətində, iş üzrə inzibati araşdırma aparıldığı hallarda isə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 102.5-ci maddəsində göstərilən müddətdə tərtib edilməsini təmin edib həmin Məcəllənin tələbləri nəzərə alınmaqla baxılmaq üçün aidiyyəti üzrə məhkəməyə göndərilməsini təmin etsinlər.

**3.** Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsi **(Mansur Piriyev):**

**3.1.** rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından tərib edilmiş hər bir protokol barədə mütəmadi olaraq ictimaiyyəti məlumatlandırsın;

**3.2.** bu əmrlə təsdiq edilmiş rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısını Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin;

**3.3.** törədilmiş inzibati xətalar və həmin xətaları törətmiş şəxslər barədə məlumatların uçotu, sistemləşdirilməsi və saxlanılması məqsədi ilə inzibati xətalar haqqında tərtib edilən və baxılmaq üçün məhkəmələrə göndərilən protokollar (işlər) barədə elektron informasiya ehtiyatının yaradılmasını təmin etsin.

**4.** Hüquq, kadr və icraya nəzarət şöbəsi **(Xudayət Həsənli)** bu əmrin surətinin Agentliyin Aparatının aidiyyəti şöbələrinə və regional bölmələrinə çatdırılmasını təmin etsin.

**5.** Bu əmrin icrasına nəzarəti müəyyən edilmiş vəzifə bölgüsünə uyğun olaraq sədr müavinləri **Rüfət Rüstəmzadəyə**, **Rəşad Mafusova** və **Balarəhim Quliyevə** həvalə edilsin.

**Əsas:** "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanının 4-cü hissəsi.

---

**Sədr** **Qoşqar Təhməzli**

*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədrinin 2018-ci il "17" oktyabr tarixli "İ-065" nömrəli əmri ilə təsdiq edilmişdir*

**"Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanının 18-1-ci hissəsinə və 45.3-cü, 46.3-cü, 47.1-ci, 48-1.2-ci, 49.2-ci və 63-1.1-ci bəndlərinə uyğun olaraq rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında protokol aşağıdakı vəzifəli şəxslər tərəfindən tərtib edilir:

**1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-**Məcəllə**) 221.8, 442-ci, 448-ci, 449-cu, 456-cı, 459.1-ci və 544.1-ci maddələrində Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətlərinə aid edilmiş məsələlər ilə bağlı rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol:

Qida Təhlükəsizliyi Agentliyinin sədri
Sədr müavini
Aparatın rəhbəri
Qida təhlükəsizliyi şöbəsinin müdiri və onun müavini
Qida təhlükəsizliyi şöbəsinin sektor müdiri
Qida təhlükəsizliyi şöbəsinin baş məsləhətçisi
Qida təhlükəsizliyi şöbəsinin böyük məsləhətçisi
Qida təhlükəsizliyi şöbəsinin aparıcı məsləhətçisi
Qida təhlükəsizliyi şöbəsinin məsləhətçisi
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin müdiri və onun müavini
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin sektor müdiri
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin baş məsləhətçisi
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin böyük məsləhətçisi
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin aparıcı məsləhətçisi
Bitki sağlamlığı və fitosanitar nəzarəti şöbəsinin məsləhətçisi
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin müdiri və onun müavini
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin sektor müdiri
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin baş məsləhətçisi
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin böyük məsləhətçisi
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin aparıcı məsləhətçisi
Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbəsinin məsləhətçisi
Agentliyin regional bölmələrinin rəhbərləri.

**2.** Məcəllənin 456-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 48-1.2-ci bəndinə uyğun olaraq inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin adından bu Siyahının 1-ci hissəsində (Bitki sağlamlığı və fitosanitar nəzarəti və Heyvan sağlamlığı və baytarlıq nəzarəti şöbələri istisna olmaqla) göstərilən vəzifəli şəxslər.